# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT GÖMRÜK KOMİTƏSİ


AZ 1073, Bakı şəhəri, Yasamal ray., Landau küç. 10

e-poçt: office@customs.gov.az
www.customs.gov.az

Tel.: (+99412) 404-22-51
Faks: (+99412) 404-22-51


**01.03.2026** **3-33/2-003898/2026**

**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi-qəlbdən təbrik edirik.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət quruculuğu siyasəti çərçivəsində formalaşan və inkişaf edən Azərbaycan Respublikasının Auditorlar Palatası ötən 30 il ərzində maliyyə nəzarətinin gücləndirilməsi, şəffaflığın və hesabatlılığın təmin edilməsi, dövlət və özəl sektorun sağlam maliyyə idarəçiliyinin təşviqi istiqamətində mühüm xidmətlər göstərmişdir.

Bu gün Palatanın fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl islahatlar kursuna uyğun olaraq daha da təkmilləşdirilir, beynəlxalq standartlara inteqrasiya, peşəkarlığın artırılması və institusional inkişaf sahələrində əhəmiyyətli nailiyyətlər əldə olunur.

Ölkəmizdə reallaşdırılan genişmiqyaslı sosial-iqtisadi islahatlar və dövlət idarəçiliyində hesabatlılıqla şəffaflıq prinsiplərinin dərinləşdirilməsi audit fəaliyyətinin strateji əhəmiyyətini daha da artırmışdır. Beynəlxalq audit standartlarının tətbiqi və elmi-metodiki bazanın möhkəmləndirilməsi milli audit sisteminin davamlı və rəqabətqabiliyyətli inkişafına mühüm töhfə vermişdir.

Palatanın beynəlxalq peşəkar qurumlarla əməkdaşlığının genişləndirilməsi və qlobal audit mühitinə fəal inteqrasiyası ölkəmizdə audit praktikasının qabaqcıl beynəlxalq

təcrübəyə uyğunlaşdırılmasına, institusional çevikliyin və peşəkar potensialın artırılmasına əlverişli şərait yaratmışdır. Eyni zamanda normativ-hüquqi tənzimləmənin müasir çağırışlara adekvat şəkildə yenilənməsi və yüksək ixtisaslı kadr korpusunun formalaşdırılması milli audit institutunun institusional inkişaf səviyyəsini və davamlılığını təmin edən əsas amillərdən olmuşdur.

Dövlət Gömrük Komitəsinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimizi çatdırır, məsul fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, rəhbərlik etdiyiniz kollektivə davamlı inkişaf və uğurlar arzulayır, milli iqtisadiyyatın dayanıqlı inkişafına və ölkəmizin maliyyə sisteminin sabitliyinin daha da möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətinizdə davamlı müvəffəqiyyətlər diləyirik.

**Hörmətlə,**
**Sədr** **Şahin Bağırov**


Qurumun adı:**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**
İmzalayan şəxs:**Komitənin sədri/ŞAHİN BAĞIROV**
İmzalanma tarixi:**01.03.2026**
**Sənədin elektron yüklənmə ünvanı:** https://c2b-fbusiness.customs.gov.az/api/v1/dictionaries/chekFileFromQrCode?code=4F5554303030393236373633
**Qeyd:***"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi quvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.*